

# Vergi Məcəlləsindəki dəyişikliklərə dair məlumat

**Dəyişikliklər 1 yanvar 2022-ci il tarixindən qüvvəyə minir**

Building a better working world



# 1 Vergi İnzibatçılığı və Maliyyə Sanksiyaları

# Vergi inzibatçılığı
## Vergidən yayınma sxemləri

Vergidən yayınma sxemlərinin aşkar edilməsi üzrə vergi orqanının hüquqları (**VM 23.1.6-1** maddəsi)

| Mövcud redaksiya | Yeni redaksiyada baş verəcək dəyişikliklərlə bağlı qeyd |
|---|---|
| Səyyar vergi yoxlamaları zamanı əsas məqsədi vergi üstünlüyü əldə etmək olan vergidən yayınma sxemi aşkar etdikdə faktiki iqtisadi göstərici əsas götürülməklə vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələrin hesablanmasını təmin etmək. | 1. Vergi orqanının qeyd edilmiş hüquqları bundan sonra yalnız səyyar yox, həmçinin kameral yoxlamalara şamil ediləcək<br><br>2. Aşkar edilmiş vergidən yayınma sxemlərini Vergi orqanı dərc etmək hüququna malik olacaq |

# Vergi inzibatçılığı

## Bankların vergi ödəyicilərinin uçotu ilə bağlı vəzifələr

Vergi ödəyiciləri tərəfindən hesabların açılması ilə bağlı əlavələr (**VM 35**-ci maddəsi)

Bundan sonra Banklarda hesabların açılması üzrə VM nəzərdə tutulmuş prosedurlar (vergi orqanına ərizə ilə müraciət edilməsi və şəhadətnamə-dublikatın alınması) həmçinin digər kredit təşkilatlarında və poçt rabitəsinin milli operatorlarında vergi ödəyiciləri tərəfindən hesablar açılarkən tətbiq ediləcək.

# Vergi inzibatçılığı

## Banklar və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatları tərəfindən məlumatların verilməsi

Hesabları üzrə aparılmış əməliyyatlar zamanı təqdim edilən məlumatlar münasibətdə yenilik (**VM 76.1-1-ci** maddəsi)

| Mövcud redaksiya | Yeni redaksiyada baş verəcək dəyişikliklərlə bağlı qeyd |
| --- | --- |
| VM 76.1-ci maddəsinin müddəalarından asılı olmayaraq, vergi ödəyicisinin vergi öhdəliklərinin müəyyən edilməsi məqsədilə ƏDV qeydiyyatında olan vergi ödəyicilərinin şəhadətnamə-dublikat əsasında açılmış hesabları üzrə aparılmış əməliyyatlar barədə aylıq məlumatlar banklar tərəfindən elektron qaydada hər ay bitdikdən sonra növbəti ayın 10-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilir. | 1. Dəyişiklikdən sonra nəinki ƏDV qeydiyyatında olan vergi ödəyicilərinin hesabları üzrə əməliyyatlar barədə həmçinin ƏDV qeydiyyatı olmayan vergi ödəyicilərin hesabları üzrə əməliyyatlar barədə məlumatlar təqdim ediləcək.<br>2. Bu cür məlumatları nəinki Banklar, həmçinin kredit təşkilatlar və poçt rabitəsinin milli operatorları təqdim edəcəklər. |

# Vergi İnzibatçılığı və Maliyyə Sanksiyaları
## Vergi ödəyicilərinin yeni vəzifələri

| Vergi ödəyicisinin vəzifəsi | Hüquqpozmalara görə Maliyyə Sanksiyası |
|---|---|
| Orta və iri sahibkarlıq subyektləri vergi orqanının tələbi ilə maliyyə hesabatlarını təqdim etməlidirlər **(16.1.6.)**: | Vergi orqanının tələbi ilə maliyyə hesabatlarının təqdim edilməməsinə görə vergi ödəyicisinə **AZN 1,000** məbləğində maliyyə sanksiyası tətbiq edilir **(57.3)** |
| Neft-qaz sahəsində fəaliyyəti olan və dövlət sektoruna aid edilən vergi ödəyiciləri istina olmaqla, digər vergi ödəyiciləri idxal ediləcək mallar barədə məlumatları* malların idxal olunacağı tarixədək qeydiyyatda olduğu vergi orqanına verməlidirlər **(16.1.11-11.)**:<br><br>İdxal ediləcək mallar barədə məlumatları təqdim edən vergi ödəyicisinin mallarının saxlanıldığı (boşaldıldığı) yerə həmin mallar idxal edildiyi vaxtdan 3 iş günü müddətində baxış keçirmək və baxışın nəticəsini protokolla rəsmiləşdirmək hüququ var **(23.1.3-2.)** | İdxal edilmiş mallar barədə məlumatları təqdim etməyən və ya təhrif olunmuş formada təqdim edən vergi ödəyicisinə müvafiq olaraq idxal edilmiş malların hesab-faktura (invoys) dəyərinin və ya onun təhrif olunmaqla təqdim edilmiş hissəsinin aşağıda müəyyən edilmiş miqdarında maliyyə sanskiyası tətbiq edilir **(57.5.)**:<br><br>➢ Mikro sahibkarlıq subyektlərinə münasibətdə **2 faizi** miqdarında;<br>➢ Digər şəxslərə münasibətdə **5 faizi** miqdarında. |

*Yuxarıda sözügedən vergiödəyiciləri tərəfindən idxal ediləcək mallar barədə aşağıdakı məlumatlar vergi orqanına verilməlidir:

- mülkiyyət, icarə və ya digər əşya hüquqları əsasında istifadə edilən və (və ya) vergi orqanlarında təsərrüfat subyekti (obyekti) kimi uçota alınmış malların saxlanılacağı (boşaldılacağı) yer barədə;
- mallar digər şəxslərə məxsus yerlərdə məsuliyyətli mühafizəyə və ya saxlanca verildiyi halda tərəflər arasında bağlanmış müqavilə və malların saxlanma yeri barədə;
- mallar sifariş əsasında gətirildiyi halda sifariş verən şəxslər barədə (sifarişçi vergi ödəyicisi olduqda VÖEN-i, fiziki şəxs olduqda adı, soyadı, atasının adı və FİN-i) və hər bir sifarişçi üzrə sifarişin məbləği barədə;

# Vergi İnzibatçılığı və Maliyyə Sanksiyaları

## Vergi ödəyicilərinin yeni vəzifələri

### İstehsal normaları haqqında məlumatın təqdim edilməsi

*Mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla* istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən istehsal olunan məhsulun vahidinə tələb olunan xammal və material sərfi normaları barədə məlumat hər il yanvar ayının 31-dək elektron qaydada vergi orqanına təqdim edilməlidir.

İstehsal prosesi ilə, o cümlədən yeni məhsul növünün istehsalına başlanılması ilə bağlı olaraq təqdim edilmiş məlumatda il ərzində dəyişiklik olarsa dəyişikliklə bağlı dəqiqləşdirilmiş məlumat təqvim ili ərzində vergi orqanına təqdim edilməlidir **(Yeni maddə - 16.1.4-2.)**

### Təsərrüfat subyektinin qeydiyyatı

! Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) müəyyən olunmuş qaydada vergi orqanlarında uçota alınmamasına və (və ya) təsərrüfat subyektinin (obyektinin) sahəsi barədə təhrif olunmuş məlumatın verilməsinə görə maliyyə sanksiyası tətbiq olunacaq **(Yeni maddə - 58.2-1.)**

**AZN 40**

- Mikro sahibkarlıq subyektləri
- Qeyri-kommersiya təşkilatları
- Qeyri-sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər

**AZN 400**

- Digər şəxslərə

# Vergi İnzibatçılığı və Maliyyə Sanksiyaları
## Vergi ödəyicilərinin yeni vəzifələri

| Vergi ödəyicisinin vəzifəsi | Hüquqpozmalara görə Maliyyə Sanksiyası |
|---|---|
| ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri təqdim etdikləri bəyannamələrlə eyni gündə vergi ili üzrə kreditor və debitor borcları barədə məlumatı elektron qaydada vergi orqanına təqdim etməlidir **(16.10.)** | Kreditor və debitor borclar barədə məlumat formasının təqdim edilməməsinə görə vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən **AZN 100** məbləğində maliyyə sanksiyası tətbiq edilir **(57.6)** |



Qeyd edək ki, əvvəl yalnız 31 dekabr 2019-cu il tarixinə kimi yaranmış debitor borclarının hərəkəti haqqında məlumat ƏDV bəyannaməsində aylıq əsasda təqdim olunurdu. Dəyişkliyə əsasən vergi ödəyiciləri artıq kreditor borcları haqqında məlumatı da vergi orqanlarına təqdim etməli olacaqlar.

Orta və iri sahibkarlıq subyektləri 2022-ci ilin yanvarın 1-dək, kiçik sahibkarlıq subyektləri isə 2023-ci il yanvarın 1-dək yaranan debitor və kreditor borcları barədə forması İqtisadiyyat Nazirliyi təsdiq edilən məlumatı müvafiq olaraq 2022-ci il martın 31-dək və 2023-ci ili martın 31-dək vergi orqanına təqdim etməlidirlər.

### Digər Maliyyə Sanksiyaları

- Nəzərdə tutulmuş qaydada gəlirlərin və xərclərin uçotu aparılmadıqda – alıcıya rəsmiləşdirilməyən xərclərin **20 faizi** (*əvvəl 10 faiz idi*) miqdarında maliyyə sanksiyası tətbiq olunur **(58.8.3.)**

# Vergi İnzibatçılığı və Maliyyə Sanksiyaları

## Malın alqı-satqısının rəsmiləşdirilməsi

**Mövcud maddə**

- Malların alışını və ya mədaxilini təsdiq edən sənədlər olmadıqda (elektron qaimə faktura, hesab faktura, təhvil-qəbul aktı, idxal gömrük bəyannaməsi, invoys, alış aktı, elektron alış aktı, qaytarılmış mallara görə malların qaytarılma aktı) – alıcıya təqvim ili ərzində belə hal yol verildikdə alınmış malların dəyərinin:
  - 1-ci dəfə yol verdikdə 10 faizi,
  - 2-ci dəfə yol verdikdə 20 faizi,
  - 3 və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.
- Yuxarıdakı məqsədlər üçün malların dəyəri dedikdə həmin malların alış qiyməti, malların alış qiymətini müəyyən etmək mümkün olmadığı halda isə topdansatış bazar qiyməti nəzərdə tutulur **(58.16.)**

**Qanunvericiliyə yeniliklər**

**(58.16.)** Alışı rəsmiləşdirilməyən malların təqdim edilməsinə dair tərtib edilmiş elektron qaimə-fakturalarda mallar barədə məlumatlar, o cümlədən malın adı dəqiq göstərilmədikdə həmin malların alışı ilə bağlı çəkilən xərclərin dəyəri aşağıdakı kimi müəyyən edilir

Təqdim edilən malların dəyəri ÷ 1.2

❗ Malın alqı-satqısını rəsmiləşdirən sənədlər həmin sənədlərin tərtib olunması müddətlər nəzərə alınmaqla, vergi nəzarəti tədbiri başlandıqdan sonra təqdim (tərtib) edildiyi halda həmin sənədlər nəzərə alınmır və yuxarıda qeyd olunan qaydada maliyyə sanksiyası tətbiq olunur.

# Vergi İnzibatçılığı və Maliyyə Sanksiyaları

## Ödəmə tapşırıqlarına dair yeni tələblər

Vergi ödəyicisi olan şəxslər arasında ödəniş əməliyyatı aparılarkən əməliyyatı həyata keçirən banka və ya bank əməliyyatlarını həyata keçirən digər şəxslərə təqdim edilən ödəmə tapşırığında aşağıdakı məlumatlar göstərilir **(Yeni maddə - 16.11.)**:

- Elektron qaimə-fakturanın seriya və nömrəsi

  *Təqvim ayı ərzində eyni vergi ödəyicisindən müntəzəm və daimi əsaslarda alınan və elektron qaimə-fakturalar ilə rəsmiləşdirilən mallara (işlərə, xidmətlərə) görə ödəniş aparılarkən belə əməliyyatlar üzrə:*

  - Tərəflər arasında bağlanmış müqavilə və ya həmin müqaviləyə əlavənin tarixi və nömrəsi

**Xarici ticarət fəaliyyəti üzrə**

- Yük gömrük bəyannaməsinin seriya və nömrəsi
- İşlərin və xidmətlərin alışı ilə bağlı hesab faktura (invoys) sənədinin tarixi və nömrəsi

**Borc ödəmələri üzrə**

- Təyinatında borc ödənişi olduğu göstərilməklə tərəflər arasında bağlanmış borc müqaviləsinin və ya borcun ödənilməsinə dair tələbnamənin tarixi və nömrəsi

**Avans ödəmələri üzrə**

- təyinatında avans ödənişi olduğu göstərilməklə tələbnamənin, yaxud tərəflər arasında bağlanmış müqavilə və ya həmin müqaviləyə əlavənin tarixi və nömrəsi

**!** Yuxarıda nəzərdə tutulan məlumatları ödəmə tapşırığında göstərməyən və ya təhrif edilməklə göstərən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən hər belə ödəmə tapşırığına görə **AZN 100** manat məbləğində maliyyə sanksiyası tətbiq edilir **(Yeni maddə - 57.7.)**



# 2 Vergi Yoxlamaları

# Vergi Yoxlamaları

## Kameral Vergi Yoxlaması

**Mövcud maddələrə dəyişiklik**

Kameral vergi yoxlamasının keçirilmə müddəti vergi növlərinə uyğun aşağıdakı qaydada dəyişdirilib:

- Mənfəət və gəlir vergisi bəyannaməsinə münasibətdə

**30 iş günü** ❯❯❯ **60 iş günü**

- digər bəyannamələrə, habelə cari vergi ödəmələrinin hesablanması haqqında arayışlara münasibətdə

**30 iş günü**

Dəyişikliklərə əsasən kameral vergi yoxlamasının predmetinə, həmçinin vergi ödəyicisi tərəfindən təqdim edilən cari vergi ödəmələrinin hesablanması haqqında arayış da əlavə edilmişdir.

# Vergi Yoxlamaları

## Kameral Vergi Yoxlaması

**Mövcud maddələrə dəyişiklik**

Xaricdən əldə olunan gəlirlər üzrə xarici dövlətlərin səlahiyyətli orqanlarından daxil olan məlumatlar əsasında kameral yoxlamanın keçirilməsi ilə bağlı **37.2**-ci maddəyə əlavə

Xaricdən əldə olunan gəlirlər üzrə xarici dövlətlərin səlahiyyətli orqanlarından müvafiq məlumatlar daxil olduğu halda kameral vergi yoxlaması bu Məcəllənin 85.4-cü maddəsində göstərilən dövr üzrə məlumatlar daxil olduğu tarixdən 30 iş günü müddətində keçirilir.

**Xatırlatma/ Maddə 85.4**

*Xarici dövlətlərin səlahiyyətli orqanlarından müvafiq məlumatlar daxil olduğu hallarda, vergi yoxlamaları (məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları istisna olmaqla) yoxlamanın keçirilməsi haqqında vergi orqanının qərar qəbul etdiyi tarixdən əvvəlki 5 illik dövrü əhatə edir.*

# Vergi Yoxlamaları

## Səyyar Vergi Yoxlaması

**Qanunvericiliyə yeniliklər**

Vergi ödəyicisində keçirilən səyyar vergi yoxlaması zamanı bu maddə ilə müəyyən olunmuş müddətlər nəzərə alınmaqla yoxlamanın əhatə etdiyi dövr və (və ya) vergi növləri aşağıdakı hallarda artırıla bilər: (**Yeni maddə 36.3-1.**)

- Vergi ödəyicisinin müraciəti əsasında;
- Keçirilən səyyar vergi yoxlamasının əhatə etdiyi dövrdən sonrakı dövrdə vergidən yayınma hallarının olması barədə vergi orqanında mənbəyi bəlli məlumatlar olduqda;
- Cinayət prosesual qanunvericiliyinə uyğun olaraq məhkəmənin və ya hüquq mühafizə orqanlarının vergi yoxlamalarının keçirilməsi barədə müvafiq qərarı olduqda.

# Vergi Yoxlamaları

## Səyyar Vergi Yoxlaması

**Mövcud maddələrə dəyişiklik**

Səyyar vergi yoxlaması 30 ~~gündən~~ **iş günündən** artıq davam edə bilməz. Müstəsna hallarda, yuxarı vergi orqanının qərarına müvafiq olaraq səyyar vergi yoxlamasının keçirilməsi müddəti 90 ~~günə~~ **iş gününə** qədər artırıla bilər.

Yuxarı vergi orqanının əsaslandırılmış qərarına əsasən səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi müddəti 30 ~~gündən~~ **iş günündən** çox olmayan müddətə uzadıla bilər (**Maddə 38.2.**)

# Vergi Yoxlamaları
## Səyyar Vergi Yoxlaması

**Qanunvericiliyə yeniliklər**

Əlavə vergi yoxlaması tədbirlərinin keçirilməsi ilə bağlı maksimum müddət müəyyən edildi.

**Maddə 49.1-2**



- Əlavə vergi yoxlaması tədbirləri əvvəlki səyyar vergi yoxlamasının davamı hesab edilir və yalnız 1 (bir) dəfə 60 iş günündən artıq olmamaqla keçirilə bilər. Əlavə vergi yoxlamasının keçirilməsinin nəticəsi üzrə yenidən əlavə vergi yoxlamasının keçirilməsi barədə qərar qəbul edilə bilməz.



# 3 Bazar Qiyməti

# Bazar Qiymәti

## Fәaliyyәt sahәlәri üzrә faiz dәrәcәlәri

Bazar qiymәti nәzәrә alınmaqla vergilәrin hesablanması aşağıdakı hallarda hәyata keçirilә bilәr **(14.3.3.)**:

30 gün әrzindә vergi ödәyicilәrinin eyni xüsusiyyәtli vә ya eyni cinsli mallara (işә, xidmәtә) tәtbiq etdiklәri qiymәtlәrin sәviyyәsi, mallların (işlәrin, xidmәtlәrin) bazar qiymәtlәri müәyyәnlәşdirilәrkәn qiymәtlәrә tәsir edә bilәn amillәr nәzәrә alınmaqla, bazarda eyni (analoji) mal (iş, xidmәt) üçün müvafiq әmәliyyatlar zamanı tәşәkkül tapan qiymәtlәrin sәviyyәsindәn müvafiq fәaliyyәt sahәlәri üzrә aşağıdakı faiz dәrәcәlәrindәn çox (aşağı vә yuxarı) fәrqlәndikdә

- **10%** Topdansatış ticarәt fәaliyyәti sahәsindә
- **20%** Tikinti vә istehsal fәaliyyәti sahәsindә
- **30%** Digәr fәaliyyәt sahәlәrindә

**!** *Qeyd: Hazırkı düzәlişin edildiyi maddә müstәqil şәxslәrlә aparılan әmәliyyatlarda bazar qiymәtinin tәtbiqi hallarını müәyyәn edir.*



# 4 Transfer Qiymətləri

# Transfer qiymətləri

## Transfer qiymətlərinə cəlb olunan şəxslər və onların vəzifələri

- Yeni Nəzarət olunan Əməliyyatlar **(14-1.2.)** və həmin əməliyyatlar üzrə Arayışın təqdim olunması **(16.1.4.)**

| | |
|---|---|
| ▸ **NoƏ-lər üzrə Arayışın təqdim olunması meyarı:** ▸ **Illik dövriyyə > 500 kAZN** | ▸ AR-nın rezidenti ilə onunla qarşılıqlı surətdə asılı olan qeyri-rezident şəxslər, **habelə həmin rezidentin başqa dövlətlərdə (ərazilərdə) yerləşən hər hansı nümayəndəliyi, filialı və digər bölməsi** arasında ▸ AR-nın rezidenti və (və ya) qeyri-rezidentin AR-dakı daimi nümayəndəliyi ilə güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) subyektlər arasında |
| ▸ **NoƏ-lər üzrə Arayışın təqdim olunması meyarı:** ▸ **Yoxdur** | ▸ **AR-nın rezidenti və ya qeyri-rezidentin AR-dakı daimi nümayəndəliyi ilə qeyri-rezident şəxslər arasında, bu şərtlə ki:** ▸ **Şəxslər beynəlxalq əmtəə birjalarında ticarət olunan məhsullar üzrə əməliyyat aparmış olsunlar;** ▸ **AR-nın rezidenti və ya qeyri-rezidentin AR-dakı daimi nümayəndəliyinin vergi ili ərzində ümumi gəlirləri 30 milyon manatdan çox və hər bir qeyri-rezident şəxslə apardığı əməliyyatların həcminin ümumi gəlirlərdə (xərclərdə) xüsusi çəkisi 30 faizdən artıq olduqda.** |

- Vergi orqanının tələbi ilə sənədlərin təqdim edilməsi **(14-1.9.)**

**!** Yuxarıda qeyd olunan əməliyyatlar üzrə arayışları müəyyən edilən müddətlərdə təqdim etməyən və ya arayışlarda düzgün olmayan məlumatlar göstərən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən tətbiq olunan maliyyə sanksiyasının məbləği AZN 500-dən **AZN 2,000-ə** qədər artırılmışdır **(57.4.)**



# 5 Nəzarət olunan Xarici Müəssisə

# Nəzarət olunan Xarici Müəssisə

## Yeni anlayış

### Nəzarət olunan xarici müəssisə

Vergitutma məqsədləri üçün AR-nın rezidenti hesab olunmayan, güzəştli vergi tutulan ölkələrdə (ərazilərdə) qeydiyyatdan keçən müəssisə aşağıdakı hallarda AR-da vergiyə cəlb olunacaq:

1. AR-nın rezidenti hesab edilən birbaşa və ya dolayısı ilə xarici müəssisədə 50 faizdən çox səsvermə hüququna və ya onun nizamnamə kapitalının 50 faizindən çoxuna və ya həmin xarici müəssisənin mənfəətinin 50 faizindən çox hissəsini əldə etmək hüququna sahibdirsə **və**
2. Nəzarət olunan xarici müəssisənin mənfəətindən faktiki ödənilən vergi, AR-nın vergi qanunvericiliyinə uyğun olaraq həmin mənfəətdən ödənməli mənfəət vergisindən 2 dəfə və ya daha çox aşağı olarsa və
3. Xarici müəssisənin illik gəlirlərinin 30 faizdən çox olan hissəsi aşağıdakı gəlirlərdən ibarət olarsa:

- Maliyyə aktivlərindən əldə edilən faiz;
- Əqli mülkiyyətdən əldə edilən royalti;
- Səhmlərin və iştirak paylarının satışından əldə edilən gəlir;
- Maliyyə lizinqindən əldə edilən gəlirlər;
- Sığorta, bankçılıq və digər maliyyə əməliyyatlarından əldə edilən gəlirlər;
- Heç bir iqtisadi dəyər yaratmayan mal və xidmətlərdən gəlir əldə edən müəssisələr üzrə gəlir.

# Nəzarət olunan Xarici Müəssisə

## İkiqat verginin aradan qaldırılması

- Nəzarət olunan xarici müəssisənin mənfəəti AR-da vergiyə cəlb edilərkən eyni vergitutma obyektindən tutulan vergi nəzərə alınır.
- AR-da vergiyə cəlb olunmayacaq gəlirlər:
  - Nəzarət olunan xarici müəssisədən əldə edilən dividendlər;
  - AR Rezident müəssisə nəzarət olunan xarici müəssisənin törəmə müəssisəsi olduqda bu cür rezident müəssisəyə aid olan vergiyə cəlb olunan mənfəət;
  - Nəzarət olunan xarici müəssisənin AR-dakı daimi nümayəndəliyi vasitəsilə əldə edilən, habelə AR-da təsis etdiyi müəssisədən əldə olunan və AR-da vergiyə cəlb olunmuş gəlirlər.

## NoM-nin gəlirlərinin AR-da vergiyə cəlb olunması qaydaları

- NoM haqda Arayış mənfəət vergisi bəyannaməsi üçün nəzərdə tutulan müddətdə təqdim olunmalıdır.
- Arayış müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) (İqtisadiyyat Nazirliyi) müəyyən etdiyi formada təqdim olunmalıdır.

Müəyyən edilmiş qaydada və müddətlərdə NoM üzrə məlumatların təqdim edilməməsinə görə 2,000 AZN məbləğində maliyyə sanksiyası nəzərdə tutulub.



# 5 Ödəmə Mənbəyindən Vergi

# Ödəmə Mənbəyindən Vergi

## Qeyri-rezidentin gəlirindən ödəmə mənbəyində vergi tutulması

**Yeni maddə**

| | |
|---|---|
| *Maddə 125-1.* | **Güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə təsis edilmiş (qeydiyyatdan keçmiş) şəxslərə və güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə aparılan ödənişlərin ödəmə mənbəyində vergiyə cəlb edilməsi.**<br><br>**Bu Məcəllənin digər müddəalarından asılı olmayaraq, GVTÖ-yə ödəmələrdən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.** |

# Ödəmə Mənbəyindən Vergi
## Azərbaycan mənbəyindən gəlir

Mövcud maddəyə dəyişikliklər və əlavələr **(13.2.16.14-1.)**

- ✓ Güzəştli vergi tutulan ölkələrdə əldə edilən gəlir güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə təsis edilmiş (qeydiyyatdan keçmiş) şəxslərə, o cümlədən onların digər ölkələrdə olan filial və ya nümayəndəliklərinə, habelə güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə olan bank hesablarına rezidentlər və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəlikləri, habelə vergi orqanında uçotda olmayan rezident fiziki şəxslər tərəfindən birbaşa və ya dolayısı ilə edilən ödənişlər (bundan sonra, “**GVTÖ-yə edilən ödənişlər**”) Azərbaycan mənbəyindən gəlir hesab olunur.

**Aşağıdakı hallarda güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə aparılan ödənişlər Azərbaycan mənbəyindən gəlirlərə aid edilmir:**

- Alınmış borclar üzrə borcun əsas məbləği qaytarıldıqda (faizlər istisna olmaqla);
- Rezident banklar tərəfindən açılan müxbir hesablara ödənişlər aparıldıqda;
- vergi orqanında uçotda olmayan fiziki şəxslər tərəfindən güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə şəxsi istehlak məqsədilə mallar (işlər, xidmətlər), o cümlədən daşınar və ya daşınmaz əmlakların alışı ilə bağlı AR-nın hüdudlarından kənarda güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə ödənişlər aparıldıqda;

# Ödəmə Mənbəyindən Vergi

## Azərbaycan mənbəyindən gəlir

*(Davamı)* **Aşağıdakı hallarda güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə aparılan ödənişlər Azərbaycan mənbəyindən gəlirlərə aid edilmir:**

- borc qiymətli kağızlarının əldə edilməsi ilə bağlı ödənişlər aparıldıqda;
- AR-na qoyulmuş investisiyalar və AR-dakı maliyyə institutlarına yerləşdirilmiş depozitlər üzrə faiz və dividend gəlirləri ödənildikdə;
- güzəştli vergi tutulan ölkələrin və ya ərazilərin rezidentlərinin əməkhaqqı və pensiyaları ödənildikdə;
- səlahiyyətli dövlət orqanlarına rüsumlar və digər ödənişlər ödənildikdə, icazələrin və sertifikatların alınması ilə bağlı ödənişlər aparıldıqda.
- GVTÖ-lərə 13.2.16.14-1 maddəsinə uyğun ödənilən vəsaitlər ödəniş tarixindən hesaba qaytarıldığı gün daxil olmaqla 1 il müddətində güzəştli vergi tutulan ölkədəki hesabdan ödəyən şəxsin bank hesabına qaytarıldıqda;

# Ödəmə Mənbəyindən Vergi

## Qeyri-rezidentin gəlirindən ödəmə mənbəyində vergi tutulması

**Mövcud maddəyə dəyişiklik**

| | |
|---|---|
| *Maddə 125.1.4.* | AR ilə digər dövlətlər arasında beynəlxalq rabitə və ya beynəlxalq daşımalar həyata keçirilərkən rabitə və ya nəqliyyat xidmətləri üçün rezident **müəssisənin** və ya sahibkarın ödəmələri - 6 faiz;<br><br>**AR-nın hüdudlarından kənarda digər dövlətlərdəki təyinat (göndərilmə) məntəqələri arasında, habelə AR-nın ərazisindən tranzit qaydada həyata keçirilən daşımalara görə rezident müəssisənin və ya sahibkarın ödəmələri bu maddə üzrə vergitutma obyekti deyildir.** |

**Yeni maddə**

| | |
|---|---|
| *Maddə 150.6.* | **Ödəmə mənbəyində vergini tutmağa borclu vergi ödəyiciləri AR-da fəaliyyətini dayandırdıqda, habelə hüquqi şəxs və ya qeyri-rezidentin daimi nümayəndəliyi ləğv edildikdə, vergi ödəyicisi olan fiziki şəxsin fəaliyyətinə xitam verildikdə 30 gün müddətində ödəmə mənbəyində tutulan vergilər barədə vergi orqanına bəyannamə verməyə borcludur.** |

# Ödəmə Mənbəyindən Vergi

## Vergi ödəyicisinin vəzifələri

**Yeni maddə**

| | |
|---|---|
| *Maddə 16.12.* | **Yerli bank, xarici bankın AR-dakı filialı və ya poçt rabitəsinin milli operatoru hüquqi şəxslərin, fərdi sahibkarların, habelə digər fiziki şəxslərin GVTÖ-yə nəzərdə tutulan pul köçürmələri barədə ödəmə tapşırıqlarının icrasını həmin məbləğdən 10 faiz dərəcə ilə ödənməli olan vergi məbləğinin dövlət büdcəsinə ödənilməsinə dair ödəmə tapşırığını icra etdikdən sonra həyata keçirir.** |

# Ödəmə Mənbəyindən Vergi
## Öhdəliyin yaranma vaxtı

Azərbaycan mənbəyindən əldə olunan gəlirlərdən ödəmə mənbəyində verginin tutulması öhdəliyinin yaranma vaxtı aşağıdakı qaydada müəyyən edilir *(Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi istisna olmaqla)* ***(Yeni maddə - 150.5)***:

1. Vergi ödəyicisi pul vəsaitini nağd qaydada ödəyirsə nağd pul vəsaitinin ödənildiyi, nağdsız ödəmə zamanı pul vəsaitinin köçürülməsinə dair ödəmə tapşırığının bank tərəfindən alındığı vaxt;
2. Vergi ödəyicisinin kreditoru qarşısında maliyyə öhdəlikləri ləğv edildiyi və ya ödənildiyi halda (qarşılıqlı hesablaşmalar aparıldıqda və digər bu kimi hallarda), öhdəliyin ləğv edildiyi və ya ödənildiyi (əvəzləşdirildiyi) vaxt;
3. Vergi orqanında uçotda olmayan fiziki şəxslərin güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə ödəmələrindən pul vəsaitinin köçürülməsinə dair ödəmə tapşırığının bank tərəfindən icra edildiyi vaxt.



# 7 Daimi Nümayəndəlik

# Daimi nümayəndəlik

## Yeni maddələr və mövcud maddələrə əlavələr

Dəyişikliklərə əsasən, daimi nümayəndəlik (əlavə olaraq), əsasən aşağıdakıları əhatə edir, amma bunlarla məhdudlaşdırılmır:

1 Tikinti və təmir meydançaları, quraşdırma, **montaj** və ya yığma obyektləri, həmçinin bu cür obyektlərlə bağlı nəzarət fəaliyyəti göstərilməsi **(19.2.5.)**

**Yuxarıda qeyd olunan fəaliyyəti baş podratçı kimi qeyri-rezident şəxs həyata keçirdiyi halda:**

- Onun bu fəaliyyəti həyata keçirmək üçün cəlb etdiyi və qarşılıqlı surətdə asılı olduğu və (və ya) fəaliyyətinə nəzarəti həyata keçirdiyi digər subpodratçı şəxslərin bu işlər üçün göstərdiyi fəaliyyətin müddəti baş podratçının fəaliyyət müddətinə əlavə edilir **(Yeni maddə - 19.2-1.)**

***Yuxarıdakı maddə, subpodratçı şəxslərin fəaliyyət müddəti 30 gündən artıq olduğu halda tətbiq edilir.***

2 Qeyri-rezident müəssisələrin və ya qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi funksiyalarını həyata keçirən, onların adından fəaliyyət göstərən, **onlar üçün müştəri bazasının toplanması və müştərilərlə işin təşkilini həyata keçirən**, onların adından müqavilələri hazırlamaq və ya bağlamaq səlahiyyətlərinə malik olan və adətən belə səlahiyyətləri həyata keçirən şəxsləri **(19.2.10.)**

# Daimi nümayəndəlik

## Yeni maddə

- Qeyri-rezident şəxs və onunla qarşılıqlı surətdə asılı olan şəxslər tərəfindən AR-da aşağıda qeyd olunan fəaliyyət növlərinin hər hansı birinin birgə şəkildə həyata keçirilməsi sahibkarlıq məqsədləri daşıdığı və ya bu fəaliyyət növlərinin hər hansı biri üzrə əlaqəli şəkildə həyata keçirilməsinin nəticələri hazırlıq və ya yardımçı xarakter daşımadığı və (və ya) belə şəxslər tərəfindən həyata keçirilən fəaliyyətlər onların vahid biznes prosesinin tərkib hissəsi olaraq bir birinə münasibətdə qarşılıqlı tamamlanma funksiyasını daşıdığı halda həmin şəxslərin fəaliyyətinə daimi nümayəndəlik kimi baxılır **(Yeni maddə - 19.3-1.)**

  - Qeyri-rezident müəssisəsinin özünə məxsus malların və məmulatların müstəsna olaraq saxlanması və ya nümayiş etdirilməsi;
  - Qeyri-rezident müəssisəsinin özünə məxsus olan malların və məmulatların ehtiyatlarının digər şəxs tərəfindən emal və sonradan Azərbaycan Respublikasından ixrac edilməsi məqsədi ilə saxlanması;
  - Qeyri-rezident müəssisəsinin yalnız özü üçün malların alınması və ya məlumatların toplanması;
  - Qeyri-rezident müəssisəsinin özü üçün hər hansı digər hazırlıq və ya yardımçı xarakterli fəaliyyət göstərməsi.



# 8 Mənfəət Vergisi

# Mənfəət Vergisi
## Azadolmalar və Güzəştlər

| 106. Azadolmalar və güzəştlər | |
|---|---|
| *Maddə 106.1.4.* | Publik hüquqi şəxslərin nizamnamələrində nəzərdə tutulan və onlara həvalə edilən vəzifələrin yerinə yetirilməsi üçün dövlət büdcəsindən ayrılmış vəsait hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan ilə bağlanılmış müqavilə əsasında 2020-ci il yanvarın 1-dən 2 il müddətində göstərilmiş iş və xidmətərdən əldə olunan gəlirdən başqa **digər ödənişli işlər görməsindən və xidmətlər göstərməsindən əldə olunan gəlirlər və faiz gəlirləri mənfəət vergisi məqsədləri üçün güzəşt altına düşmür** |
| *Maddə 106.1.18* | Paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan hüquqi şəxslər və dövlətin adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla, vergi ödəyicisinin hesabat ilinin mənfəətinin 10 faizindən çox olmayan hissəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən meyarlara cavab verən elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara köçürülən hissəsi – 2019-cu il 1 yanvar tarixdən 10 il müddətinə, **AR Prezidenti tərəfindən ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən hissəsi üzrə isə – 2021-ci il 1 yanvar tarixdən 8 il müddətinə.** Bu maddənin müddəaları yalnız nağdsız qaydada ödənilən xərclərə münasibətdə tətbiq edilir. |
| | |

# Mənfəət Vergisi

## Gəlirin əldə edilməsi ilə bağlı xərclər

**Yeni maddələr**

| | |
|---|---|
| *Maddə 108.4.* | AR-nın ərazisi daxilində ezamiyyələr üzrə ezamiyyə xərcləri müvafiq təsdiqedici sənədlər əsasında (gündəlik xərclər istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (Nazirlər Kabineti) müəyyənləşdirdiyi norma daxilində gəlirdən çıxılan xərclərə aid edilir. AR-nın ərazisində ezamiyyə zamanı mehmanxana xərcləri barədə müvafiq təsdiqedici sənədlər təqdim edilmədiyi hallarda ezamiyyə xərclərinin 1 günlük normasının mehmanxana xərcləri üçün müəyyən edilmiş hissəsinin 50 faizi gəlirdən çıxılır. |
| *Maddə 108.5.* | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş təbii itki normaları daxilində zayolmadan əmələgələn itkilər, təbii itki normaları daxilində xarabolmalar və bu kimi əskikgəlmələr vergitutma məqsədləri üçün gəlirdən çıxılır. |

# Mənfəət Vergisi

## Gəlirdən çıxılmalı olan təmir xərcləri

**Təmirlə bağlı xərclərin gəlirdən çıxılması**

| Mövcud maddələrə dəyişikliklər və əlavələr | |
|---|---|
| *Maddə 115.1.* | **Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası** üzrə hər il üçün gəlirdən çıxılmalı olan təmir xərclərinin məbləği əsas vəsaitlərin əvvəlki ilin sonuna qalıq dəyərinin 5 faizi kimi müəyyən olundu. |
| *Maddə 115.6.* | **İcarəyə götürülmüş əsas vəsaitlər icarəçinin balansında uçota alınmadıqda və ya** təmir işləri icarəyə verənin hesabına aparıldıqda yaxud icarə haqqı ilə əvəzləşdirildikdə *icarəyə götürülmüş əsas vəsaitlərin təmiri üzrə faiz həddi ilə məhdudlaşdırılma* icarəçiyə tətbiq edilmir. |

| Yeni maddə | |
|---|---|
| *Maddə 115.6-1.* | **İcarəçinin balansında uçota alınmayan əsas vəsaitlərin təmirinə çəkilən və icarə haqqı ilə əvəzləşdirilməyən, yaxud icarəyə verən tərəfindən əvəzi ödənilməyən xərclər icarəçi tərəfindən kapitallaşdırılaraq təmir edilən əsas vəsaitin aid olduğu kateqoriya üzrə müvafiq müəyyən edilmiş amortizasiya dərəcəsi ilə amortizasiya olunur.** |

# Mənfəət Vergisi

## Gəlirin və xərcin uçotu qaydası

Mikro sahibkarlıq subyektləri öz seçimlərindən asılı olaraq gəlirlərin və xərclərin uçotunu kassa metodu ilə və ya hesablama metodu ilə apara bilər.

Kiçik, orta və iri sahibkarlıq subyektləri isə gəlirləri və xərcləri hesablama metodu ilə aparır **(130.4.)**

Tələb orta və iri sahibkarlıq subyektləri üçün 2022-ci il 1 yanvar kiçik sahibkarlıq subyektləri üçün 2023-cü il 1 yanvar tarixindən qüvvəyə minir.

Banklar və kredit təşkilatları tərəfindən Vətən müharibəsində şəhid olmuş və ya yaralanmış şəxslərin 2021-ci il 1 yanvar tarixinədək alınmış kreditlər üzrə həmin tarixədək ödənilməyən borclarına görə hesablanmış faizlərin silinməsi bankların və kredit təşkilatlarının vergitutulan gəlirlərinə aid edilmir. Sözügedən silinən borcların əsas məbləği üzrə ehtiyatlar gəlirdən çıxılan xərclərə aid edilir **(130.7.)**

# Mənfəət Vergisi

## Gəlirin və ya zərərin qəbul edilməməsi

**Yeni maddə - 144.1.4.**

- ✓ Hüquqi və fiziki şəxslər tərəfindən daşınmaz əmlak, habelə əmlak kompleksi şəklində müəssisələr dövlət orqanlarına (qurumlarına) əvəzsiz olaraq verildikdə vergi tutulan gəlir müəyyən edilərkən gəlir və ya zərər nəzərə alınmır.

# Mənfəət Vergisi

## Cari vergi ödəmələri

- Əvvəlki vergi ilində fəaliyyəti **və ya vergi tutulan mənfəəti (gəliri)** olmayan vergi ödəyicilərinin mənfəət vergisi və ya gəlir vergisi üzrə cari vergi ödəmələri təqvim ili ərzində rüblər üzrə artan yekunla müvafiq vergi dərəcələrinə əsasən hesablanır **(151.5.)**



# 9 Fiziki Şəxslərin Gəlir Vergisi

# Fiziki Şəxslərin Gəlir Vergisi

## Gəlir vergisinin dərəcəsi

Aşağıdakı qeyd olunan qeyri-sahibkarlıq fəaliyyəti üzrə illik gəlirlərdən 14% dərəcə ilə ödəmə mənbəyində vergi tutulacaq **(101.2.)**:

- Muzdlu işçi kimi cəlb etmədiyi fiziki şəxslərə hüquqi şəxslər və ya fərdi sahibkarlar tərəfindən ödənilən maddi yardım, mükafat və təqaüdlərdən

- Vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan fiziki şəxslərin "Nağdsız hesablaşmalar haqqında" AR-nın Qanununda göstərilən **malların** təqdim edilməsindən əldə edilən gəlirlərindən xərclər çıxılmadan **5** (*əvvəl 2 faiz idi*) faiz dərəcə ilə vergi tutulur **(101.6.)**
  - kənd təsərrüfatı məhsulları
  - əlvan və qara metal qırıntıları
  - utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatları
  - utilizasiya məqsədləri üçün işlənmiş şinləri
  - xam dəri

**Qeyd: Vergidən azad olunan gəlirlər istisna olmaqla**

# Fiziki Şəxslərin Gəlir Vergisi
## Gəlir vergisindən azadolmalar və güzəştlər

| **102. Azadolmalar və güzəştlər** | | |
|---|---|---|
| *Maddə 102.1.3.1.* | Müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinəti | |
| | Ölkə daxilində - **AZN 10,000-dək** olan hissəsi | Xaricdə - **AZN 50,000-dək** olan hissəsi |
| *Maddə 102.1.3.3.* | Şəhid olmuş şəxslərin ailə üzvlərinin əldə etdiyi maddi yardımın AZN **20,000-dək** olan hissəsi. | |
| *Maddə 102.1.3.4.* | AR-nın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və mülki şəxslərin əldə etdiyi maddi yardımın **AZN 20,000-dək** olan hissəsi. *Maddi yardım almış mülki şəxslərə bu güzəşt o halda verilir ki, AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəxsin hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən edildiyini təsdiq edən arayış təqdim edilmiş olsun.* | |

# Fiziki Şəxslərin Gəlir Vergisi
## Gəlir vergisindən azadolmalar və güzəştlər

| **102. Azadolmalar və güzəştlər** | |
|---|---|
| *Maddə 102.1.4.* | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinətlər istisna olmaqla, dövlət müavinətləri, əvəzsiz dövlət köçürmələri, dövlət pensiyaları, dövlət təqaüdləri, **hüquqi şəxsin, onun filialı və ya nümayəndəliyinin, habelə fərdi sahibkarın fəaliyyətinin ləğvi və** işçilərin sayının və ştatların ixtisar edilməsi ilə əlaqədar olaraq əmək müqaviləsinə xitam verildikdə işçilərə, **habelə işçinin vəfatı ilə əlaqədar əmək müqaviləsinə xitam verildikdə isə vəfat edənin vərəsələrinə** AR-nın Əmək Məcəlləsinə müvafiq ödənilən təminatlar, habelə AR-nın qanunları və müvafiq icra hakimiyyəti orqanlarının qərarları əsasında dövlət büdcəsinin vəsaiti hesabına fərdi birdəfəlik ödəmələr və ya maddi yardımlar. |
| *Maddə 102.1.25-1.* | Vətən müharibəsində şəhid olmuş və ya yaralanmış şəxslərin banklara və digər kredit təşkilatlarına olan borclarının silinməsindən əldə olunan gəlir. |

**Qeyd: VM-nin 102-ci maddəsində nəzərdə tutulan güzəştlər əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxsin həmin maddədə sadalanan vergi güzəştlərini əldə etməyə əsas verən statusu olduğu, lakin güzəşt hüququnu təsdiq edən müvafiq sənədləri əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə mindikdən sonra təqdim etdiyi halda vergi güzəşti həmin fiziki şəxsin əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə mindiyi tarixdən hesablanır.**



# 10 Elektron Qaimə-faktura

# Elektron qaimə-fakturaları

## Elektron qaimə-faktura növlərinə əlavələr

Vergi ödəyicisi tərəfindən aparılan əməliyyatlar zamanı əməliyyatın xarakterindən asılı olaraq verilməli olan elektron qaimə-fakturlara aşağıdakı dəyişikliklər edilmişdir **(Maddə 71-1.5)**:

- malların **(işlərin, xidmətlərin)** qaytarılması barədə;
- malların **(işlərin, xidmətlərin)** vəkalət verən (komitent) tərəfindən agentə (komisyonçuya) verilməsi barədə;
- agent (komisyonçu) tərəfindən malların **(işlərin, xidmətlərin)** alıcısına **(subagentə)** təqdim edilən;
- agent (komisyonçu) tərəfindən malların **(işlərin, xidmətlərin)** vəkalət verənə (komitentə) qaytarılması barədə;
- malların emala, **yaxud saxlamaya** verilməsi barədə;
- emal prosesi keçmiş, **yaxud saxlamaya** verilmiş malların qaytarılması barədə;
- **aksizli malların (neft məhsulları istisna olmaqla) təsərrüfatdaxili yerdəyişməsi barədə; (Yeni Maddə 71-1.5.10)**
- **ixrac qeydi ilə satış barədə. (Yeni maddə 71-1.5.11)**

# Elektron qaimə-fakturaları
## Aksizli malların təsərrüfatdaxili yerdəyişməsi e-qaiməsi

71-1.5.10-ci maddə ilə yeni tətbiq edilən «Aksizli malların (neft məhsulları istisna olmaqla) təsərrüfatdaxili yerdəyişməsi barədə elektron qaimə-faktura» aşağıdakılar tərəfindən tərtib edilir **(Yeni maddə 71-1.6)**:

- malların istehsalçıları
- malların idxalçıları




Aksizli malların istehsalçısı tərəfindən aksizli malların istehsal binasının hüdudlarından ona məxsus digər təsərrüfat subyektlərinə (obyektlərinə), yaxud əvvəlcədən sifariş edilməyən əməliyyatlar üzrə nəqliyyat vasitələrinə buraxılışı yuxarıda qeyd olunan e-qaimə ilə rəsmiləşdirilir.

*Malların təsərrüfatdaxili yerdəyişməsi e-qaiməsi tərtib edilmədən göndərilməsinə görə vergi ödəyicisinə elektron qaimə-faktura ilə rəsmiləşdirilməyən hər bir belə əməliyyat üçün* ***100 manat*** *miqdarında maliyyə sanksiyası tətbiq edilir. Qeyd edilən maddə 2022-ci ilin 1 iyul tarixindən tətbiq edilir. Lakin, sözügedən e-qaimənin təqdim edilmə müddəti dəyişikliklərdə nəzərdə tutulmayıb.*

# Elektron qaimə-fakturaları
## Digər müddəalar

**Qanunvericiliyə yeniliklər**

- Agent (komisyonçu) tərəfindən malların (işlərin, xidmətlərin) subagentə verilməsi, habelə subagent tərəfindən malların (işlərin, xidmətlərin) alıcıya təqdim edilməsi zamanı "agent (komisyonçu) tərəfindən malların (işlərin, xidmətlərin) alıcısına (subagentə) təqdim edilən (maddə 71-1.5.5-ci)" elektron qaimə-faktura tərtib edilir və müvafiq olaraq əməliyyatın subagentə ötürülməsi və subagent tərəfindən aparılması ilə bağlı qeyd aparılır. **(Yeni maddə 71-1.7)**

**Mövcud maddəyə dəyişiklik**

Elektron qaimə-faktura təqdim edilməli olduğu halda malların elektron qaimə-faktura verilmədən təqdim edilməsinə, **topdansatış ticarət və istehsal obyektlərindən, habelə anbarlardan malların pərakəndə satış qaydasında rəsmiləşdirməklə təqdim edilməsinə**, habelə malların əvvəlcədən sifariş edilmədən təqdim edilməsi üçün malların təsərrüfat subyektindən (obyektindən) nəqliyyat vasitələrinə yüklənməsi üçün təsərrüfatdaxili yerdəyişmə qaimə-fakturasının tərtib edilmədən verilməsinə görə – malları təqdim edən şəxsə təqdim edilmiş malların satış qiymətinin:

- 1-ci dəfə yol verdikdə 10 faizi,
- 2-ci dəfə yol verdikdə 20 faizi,
- 3 və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

# Elektron qaimə-fakturaları

## Elektron əmtəə-nəqliyyat qaiməsi və elektron yol vərəqi

**Qanunvericiliyə yeniliklər**

| | |
|---|---|
| **Maddə 71-3** | Elektron əmtəə-nəqliyyat qaiməsi və yük avtonəqliyyatı üçün elektron yol vərəqi |
| **Maddə 71-3.1** | "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əmtəə təyinatlı yüklərin daşınmasına görə **elektron əmtəə-nəqliyyat qaiməsi** və **yük avtonəqliyyatı üçün elektron yol vərəqi** tərtib edilir. |
| **Maddə 71-3.2** | Elektron əmtəə-nəqliyyat qaiməsinin və yük avtonəqliyyatı üçün elektron yol vərəqinin forması, tətbiqi, uçotu və istifadəsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir. |
| ***Keçid müddəası**** | *Qeyd edilən maddə Nazirlər Kabineti tərəfindən təsdiq ediləcək elektron əmtəə-nəqliyyat qaiməsinin və yük avtonəqliyyatı üçün elektron yol vərəqinin forması, tətbiqi, uçotu və istifadəsi qaydası ilə eyni gündə qüvvəyə minir.* |



# 11 Əlavə Dəyər Vergisi və Aksiz Vergisi

# Əlavə Dəyər Vergisi
## Vergitutma obyekti

**Mövcud maddələrə dəyişiklik**

**Maddə 159.1**

2022-ci il 1 yanvar tarixindən 3 il müddətində **kənd təsərrüfatı məhsullarının (yerli və xarici mənşəli) topdan və pərakəndə satışı zamanı tətbiq edilən ticarət əlavəsi vergitutma obyektidir.**

*<u>Keçid müddəası*:</u> ƏDV ödəyicisi olan belə şəxslər tərəfindən 2022-ci il yanvarın 1-dək ƏDV ödənilməklə əldə edilmiş və müvafiq əvəzləşdirmə alınmış sahibliklərində qalan kənd təsərrüfatı məhsullarının sonradan satışı zamanı ƏDV həmin malların tam satış dəyərindən hesablanır.*

*Sözüegedən hallarda vergi ödəyiciləri sahibliklərində qalan kənd təsərrüfatı məhsulları barədə Iqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş formada məlumatı 2022-ci il yanvarın 31-dək qeydiyyatda olduqları vergi orqanına təqdim etməlidirlər.*

**Maddə 159.5**

Vergi ödəyicisi malları (işləri, xidmətləri) ƏDV-ni ödəməklə əldə edirsə və müvafiq əvəzləşdirmə alırsa və ya almaq hüququna malikdirsə, belə mallardan (işlərdən, xidmətlərdən) qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi, fövqəladə hallardan, **qanunvericiliklə müəyyən edilmiş təbii itki normaları daxilində zayolmadan əmələgələn itkilərdən, təbii itki normaları daxilində xarabolmalar və bu kimi əskikgəlmələrdən** başqa, malların itməsi, əskik gəlməsi, xarab olması, tam amortizasiya olunmadan uçotdan silinməsi və ya oğurlanması vergi tutulan əməliyyat sayılır.

# Əlavə Dəyər Vergisi
## ƏDV-dən azadolmalar

**Mövcud maddələrə dəyişiklik**

*Siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) (Nazirlər Kabineti) tərəfindən təsdiq edilən* kütləvi informasiya vasitələri məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin idxalı və satışı, həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın idxalı və satışı **(Maddə 164.1.7.)**

mətbu kütləvi informasiya vasitələri məhsullarının və kitabların (o cümlədən elektron kitabların), habelə dərslik komplektlərinin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti (reklam xidmətləri istisna olmaqla) **(Maddə 164.1.8.)**

**Qanunvericiliyə yeniliklər**

kənd təsərrüfatı texnikalarının mülkiyyət hüququnun keçməməsi şərti ilə **kənd təsərrüfatı istehsalçılarına lizinqə (icarəyə) verilməsi** **(Yeni maddə 164.1.34-1.)**

kənd təsərrüfatı məhsullarının istehsalçılarına **aqrotexniki xidmətlərin göstərilməsi** **(Yeni maddə 164.1.34-2.)**

# Əlavə Dəyər Vergisi

## ƏDV-dən azadolmalar

**Mövcud maddələrə dəyişiklik**

dövlət adından yaradılan publik hüquqi şəxslər tərəfindən nizamnamələrində nəzərdə tutulan və onlara həvalə edilən vəzifələrin yerinə yetirilməsi üçün dövlət büdcəsindən ayrılmış vəsait hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bağlanılmış müqavilə əsasında işlərin və xidmətlərin göstərilməsi – 2020-ci il yanvarın 1-dən **4 il** müddətinə. **(Maddə 164.1.48-1.)**

**Digər məsələlər**

Müəssisənin təqdim edilməsinə əlavə

**Hüquqi və fiziki şəxslər tərəfindən daşınmaz əmlakların, habelə əmlak kompleksi şəklində müəssisələrin dövlət orqanlarına (qurumlarına) əvəzsiz olaraq verilməsi vergi tutulan əməliyyat sayılmır. (Yeni maddə 164.1.34-1.)**

# Əlavə Dəyər Vergisi

## ƏDV-dən azadolmalar

yalnız elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı və **satışı (Maddə 164.1.41)**

istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 sm$^3$ çox olmayan hibrid avtomobillərin idxalı və satışı - 2022-ci il yanvarın 1-dən 3 il müddətinə **(Maddə 164.1.41-1)**

elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı 2022-ci ilin yanvarın 1-dən 3 il müddətinə **(Maddə 164.1.41-2)**

# Əlavə Dəyər Vergisi

## ƏDV-nin sıfır (0) dərəcəsi ilə tutulması

**Mövcud maddələrə dəyişiklik**

**Maddə 165.1.4**

Beynəlxalq poçt xidmətləri istisna olmaqla, beynəlxalq və tranzit yük və sərnişin daşınması, habelə tranzit yük daşınması ilə bilavasitə bağlı yük aşırılma xidməti. Beynəlxalq və tranzit uçuşlarla, bilavasitə bağlı olan işlərin görülməsi, xidmətlərin göstərilməsi, **habelə beynəlxalq və tranzit yük daşınması ilə bağlı ekspeditor xidmətlərinin göstərilməsindən** ƏDV sıfır (0) dərəcəsi ilə tutulur.

**Maddə 165.5**

Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara görə ödənilmiş ƏDV-nin qaytarılması ilə bağlı neft və qaz məhsulları ilə yanaşı, həmçinin, **avtomobillər, alkoqollu içkilər və tütün məmulatlarına** görə ödənilən ƏDV məbləğinin də qaytarılmasına məhdudiyyət tətbiq olunacaq.

Lakin, **tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılmasına imkan veriləcək.**

*Keçid müddəası*: Qeyd edilən maddə alkoqollu içkilər və tütün məmulatlarına münasibətdə 2022-ci il oktyabrın 1-dən tətbiq edilir.*

**Maddə 165.6**

Fiziki şəxs olan istehlakçılar eyni binadan bir və ya bir neçə yaşayış və (və ya) qeyri-yaşayış sahələrini aldıqda, ƏDV-nin qaytarılması **alınmış yaşayış sahəsinin 500 kvadratmetr və qeyri-yaşayış sahəsinin 500 kvadratmetrdən çox olmayan hissəsinə mütənasib ödənilmiş ƏDV-yə tətbiq edilir.**

# Əlavə Dəyər Vergisi

## İşlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer

**Mövcud maddəyə dəyişiklik**

ƏDV məqsədləri üçün işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yerin işlərin və ya xidmətlərin alıcısının yerləşdiyi və ya qeydiyyatda olduğu, təsis edildiyi, işlər və ya xidmətlər alıcının daimi nümayəndəliyi ilə bilavasitə bağlı olduğu halda həmin daimi nümayəndəliyin olduğu yerə əsasən müəyyən edən **168.1.5**-ci maddəyə aşağıdakı əlavələr edilmişdir:

- patentlərin, lisenziyaların, ticarət markalarının, müəlliflik və digər analoji hüquqların mülkiyyətə verilməsi və ya güzəşt edilməsi, **o cümlədən istifadəyə verilməsi**;

- işçi qüvvəsinin **təchiz edilməsi** üzrə xidmətlərin göstərilməsi **(işçilər bu xidmətlərin alıcısının fəaliyyət göstərdiyi yerdə işlədikləri halda).**

# Əlavə Dəyər Vergisi

## ƏDV-nin əvəzləşdirilməsi

ƏDV tutulan əməliyyatlar üçün malların (işlərin, xidmətlərin) alışı zamanı ödənilmiş ƏDV məbləği əməliyyatın dəyəri **alıcının bank hesabından həmin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank hesabına**, ƏDV məbləği ƏDV-nin depozit hesabına ödənildikdə əvəzləşdirilir. **(Maddə 175.1)**

**Müvəqqəti idxal şəklində Azərbaycan Respublikası ərazisinə buraxılan və müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar sonradan sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirildiyi halda idxal əməliyyatı üzrə ödənilmiş ƏDV məbləğləri malların sərbəst dövriyyəyə buraxıldığı hesabat ayında əvəzləşdirilir.** (**Maddə 175.10**)

Kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı ilə məşğul olan vergi ödəyiciləri tərəfindən 2022-ci ilin 1 yanvar tarixindən əldə edilmiş kənd təsərrüfatı məhsullarına görə **3 il müddətində ödənilmiş ƏDV məbləğləri əvəzləşdirilmir. (Yeni maddə 175.12)**

# Aksiz Vergisi

## Aksiz hesablanan dövriyyənin dəqiqləşdirilməsi

**Yeni maddələr**

| Aksiz hesablanan dövriyyənin dəqiqləşdirilməsi | |
|---|---|
| *Maddə 186-1.1.* | Aksizli malların istehsalçısı tərəfindən malların istehsal binasının hüdudlarından kənara buraxılmasına görə vergi hesablanmışdırsa, həmin malların xarab olması, yaxud istifadə müddətinin bitməsi və ya digər səbəblərdən geri qaytarılması zamanı hesablanmış aksiz malların qaytarıldığı hesabat dövründə azaldılır. |
| *Maddə 186-1.2.* | Aksizli malların istehsalçısı tərəfindən malların istehsal binasının hüdudlarından kənara özünə məxsus obyektlərə buraxılmasından sonra həmin malların xarab olması, yaxud istifadə müddətinin bitməsi səbəbindən geri qaytarılması zamanı vergi ödəyicisi həmin malların aktlaşdırılması və hesablanmış verginin azaldılması üçün vergi orqanına müraciət edir. Müraciət edilmə tarixindən 5 iş günü ərzində vergi orqanının məsul şəxslərinin iştirakı ilə həmin mallar aktlaşdırılır. |
| *Maddə 186-1.3.* | Xarab olmuş, yaxud istifadə müddəti bitmiş məhsullara görə aksizin azaldılması müvafiq aktın tərtib edildiyi hesabat dövründə həyata keçirilir və vergi hesabatı təqdim edilərkən tərtib edilən akt vergi orqanına təqdim edilir. Xarab olmuş, yaxud istifadə müddəti bitmiş məhsullar məhv edildikdə həmin məhsulların istehsalı zamanı əvəzləşdirilmiş aksizin büdcəyə hesablanması həyata keçirilir. |

# Aksiz Vergisi
## Verginin dərəcələri

| | |
|---|---|
| AR-da istehsal olunan içməli spirtə, pivəyə, spirtli içkilərə, tütün məmulatlarına, energetik içkilərə, trubka tütünü, çəkmə, çeynəmə, sovurma, iyləmə tütünləri, bütün növ qəlyanlar üçün nəzərdə tutulan, habelə qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsullarına və elektron siqaretlər üçün mayeyə aşağıdakı aksiz dərəcələri tətbiq edilir **(190.3.)**: | |
| İçməli spirt (o cümlədən tərkibində 80 faizdən az spirt olmayan denaturlaşdırılmamış etil spirti; tərkibində 80 faizdən az spirt olan denaturlaşdırılmamış etil spirti) hər litrinə | hər litrinə **4,0** manat |
| Araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatları | |
| Konyak və konyak materialları | |

# Aksiz Vergisi
## Verginin dərəcələri

**Yeni maddələr**

- Mühərrikin həcmi 3000 kubsantimetrdən çox və istehsal tarixi 3 ildən artıq olan minik avtomobillərinə görə vergi dərəcələri (Yeni maddə - **(190.4.1-3.)**:

| Vergitutma obyektinin adı | Aksizin dərəcəsi |
|---|---|
| Minik avtomobilləri: | |
| **- mühərrikin həcmi 4,000 kubsantimetrədək olduqda** | **5,600 manat + mühərrikin həcminin 3001-4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 15 manat** |
| **- mühərrikin həcmi 5,000 kubsantimetrədək olduqda** | **20,600 manat + mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 40 manat** |
| **- mühərrikin həcmi 5,000 kubsantimetrdən çox olduqda** | **60,600 manat + mühərrikin həcminin 5000 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə - 80 manat** |

- AR-na idxal olunan minik avtomobillərinin istehsal tarixi 7 ildən artıq olduqda, aksiz yuxarıdakı maddəyə əsasən hesablanmış məbləğə benzin mühərrikli minik avtomobillərinə 1,2, dizel mühərrikli minik avtomobillərinə isə 1,5 yüksəldici əmsal tətbiq edilməklə hesablanır **(190.4.1-4.)**



# 12 Digər vergilər (Əmlak, Torpaq, Mədən Vergiləri)

EY

# Əmlak Vergisi
## Ümumi dəyişikliklər

- Fiziki şəxslərin bina, su və hava nəqliyyatı vasitələri Yerli (bələdiyyə) vergilərə aid ediləcək. Digər əmlaklar isə Dövlət vergisinə aid ediləcək.
- Fərdi sahibkarların balansında olan əsas vəsaitlərdə vergitutma obyekti hesab olunacaq (bina, su və hava nəqliyyatı vasitələrindən başqa)
- Müəssisələrin avtonəqliyyat vasitələri də əmlak vergisinə cəlb olunacaq

# Torpaq Vergisi
## Mövcud maddələrə dəyişikliklər

| **Ümumi anlayış** | |
|---|---|
| *Maddə 203.1.* | Torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya **torpaqdan icarə və ya digər əsaslarla istifadə edən şəxslərin** təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyə şəklində hesablanır. |
| **Verginin ödəyiciləri** | |
| *Maddə 204* | AR-nın ərazisində mülkiyyətində və ya **icarə və ya digər əsaslarla istifadəsində** torpaq sahələri olan**, o cümlədən dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrini icarə və digər əsaslarla istifadə edən** fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləridir. |
| **Vergitutma obyekti** | |
| *Maddə 205* | Fiziki şəxslərin və müəssisələrin AR-nın ərazisində mülkiyyətində və ya **icarə və ya digər əsaslarla istifadəsində** olan torpaq sahələri vergitutma obyekti sayılır. |

# Torpaq Vergisi

## Yeni maddə

| Vergi güzəştləri | |
|---|---|
| *Maddə 207.8.* | Geoloji ayırma sənədi əsasında faydalı qazıntı yataqlarının (neft və qaz yataqları istisna olmaqla) axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı işlərinə cəlb edilən torpaq sahələrinə görə torpaq vergisi müvafiq təsdiqedici sənədlər (geoloji-kəşfiyyat işlərini həyata keçirən şəxsin podrat müqaviləsi, geoloji-kəşfiyyat planı, geoloji-kəşfiyyatla bağlı təqdim edilən hesabat) əsasında 75 faiz azaldılır. Bu maddənin müddəaları eyni vergi ilində geoloji ayırma sənədi əsasında faydalı qazıntı yataqlarının (neft və qaz yataqları istisna olmaqla) axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı işlərinə cəlb edilən və istismar edilərək faydalı qazıntılar çıxarılan torpaq sahələrinə münasibətdə tətbiq edilmir. |

# Mədən Vergisi
## Verginin dərəcələri

Yerin təkindən çıxarılan aşağıdakı faydalı qazıntıların növündən asılı olaraq mədən vergisi hər kubmetr üçün aşağıdakı dərəcələrlə hesablanır **(216.2.)**:

| Mədən vergisinə cəlb olunan faydalı qazıntının adı | Mədən vergisinin dərəcəsi (manatla) |
|---|---|
| Qeyri-filiz faydalı qazıntıları: | |
| **- gips, gəc** | **1,0** |

**Yeni maddə**

**Vergi güzəştləri**

| | |
|---|---|
| *Maddə 217-1.* | **Neft və qaz istisna olmaqla, digər faydalı qazıntılara görə vergi ödəyicisi tərəfindən təqvim ili üzrə hesablanmış mədən vergisinin məbləği həmin faydalı qazıntıların çıxarıldığı torpaq sahələrinə görə onun tərəfindən həmin təqvim ili üzrə hesablanmış və ödənilmiş torpaq vergisinin məbləğindən çox olmamaqla azaldılır.** |